*Zaur Ədalət oğlu ƏSƏDZADƏ*
*Azərbaycan Kooperasiya Universiteti, doktorant*
*zaur.esedzade.1130@gmail.com*

# HEYDƏR ƏLİYEVİN AZƏRBAYCANDA EKOLOJİ DAYANIQLI ƏTRAF MÜHİTİN FORMALAŞDIRILMASINDA ROLU

***Xülasə***

Tədqiqat işində Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyevin rəhbərliyi dövründə həyata keçirilən ekoloji siyasətdən və təbii sərvətlərin qorunması istiqamətində görülən işlərdən bəhs edilməklə yanaşı bu sahədə dövlət rəhbərinin mühüm rolu vurğulanır. Həyata keçirilən ekoloji siyasətin ölkə iqtisadiyyatı ilə yanaşı, cəmiyyətin rifahının artırılmasına xidmətindən bəhs edilir və ekoloji siyasət ilə onun cəmiyyətin rifahına təsiri əlaqələndirilir. Bundan başqa, Ümummilli Lider Heydər Əliyevin rəhbərliyi ilə müxtəlif ekoloji layihələr və siyasətlər, o cümlədən milli parkların və xüsusi mühafizə olunan qoruqların, yasaqlıqların, meşələrin salınması, su ehtiyatlarının təmizlənməsi və ekoloji maarifləndirmə işlərinin aparılmasından bəhs edilir. Məqalədə təbii sərvətlərdən davamlı istifadə ilə bağlı milli və beynəlxalq tədbirlər vurğulanmaqla ekoloji problemlərə həssas cəmiyyətin yaradılmasının vacibliyi diqqətə çatdırılmaqla yanaşı təbii sərvətlərin mühafizəsi ilə cəmiyyətin rifahı və rəhbərlərin ekoloji məsələlərə həssaslığı arasında tarazlığın yaradılmasının əhəmiyyətindən bəhs edilir.

***Açar sözlər: Ümummilli Lider, ekologiya, ətraf mühit, ekoloji siyasət, milli park, qoruq, yasaqlıq.***

## *Giriş*

**“Təbiətin ölkəmizə bəxş etdiyi zəngin sərvətlərə xüsusi qayğı ilə yanaşmaq, belə misilsiz xəzinələri bəşəriyyətin gələcəyi naminə qorumaq üzərimizə düşən başlıca vəzifələrdəndir.”**

**Ümummilli lider H. ƏLİYEV**

Dünya təcrübəsindən məlumdur ki, dövlət başçısı ölkənin inkişaf tələblərini və xalqın mənafeyini dəqiqliklə qiymətləndirməyə qadir olan, ölkənin mədəni, iqtisadi və təbii resurslarını, potensialını əhalinin rifahı və dövlətçiliyin inkişafına yönəltməyi bacaran şəxs olmalıdır. Bu mənada Azərbaycan xalqı xoşbəxtdir ki, tarix xalqımıza Heydər Əliyev kimi dünyamiqyaslı şəxsiyyətin simasında əsl ümummilli liderə xas olan parametrlərə tam cavab verən, eləcə də xalqımızın və dövlətimizin qarşısında duran çətinlikləri aradan qaldırmaqla Azərbaycan dövlətini qısa zamanda hüquqi, dünyəvi, demokratik inkişaf yoluna çıxarmağa qadir olan dövlət başçısı, ümummilli lider bəxş etmişdir. Ümummilli lider Heydər Əliyevin xalqın iradəsi və çağırışı ilə 1993-cü ildə yenidən hakimiyyətə qayıdışı Azərbaycanın siyasi və iqtisadi həyatında taleyüklü dəyişikliklərin başlanğıcını qoydu [7, s.48-73]. Azərbaycan dövlətini və ölkə iqtisadiyyatını labüd fəlakətdən, hərc-mərclikdən xilas edən dahi rəhbər ölkənin iqtisadi yüksəlişi üçün də təcili tədbirlər görməyə başladı. Tədbirlər ölkənin iqtisadi, siyasi, ekoloji, sosial, hərbi və sair bütün sahələri üzrə həyata keçirilirdi. Hələ müstəqillik illərindən öncə, yəni, 1969-1982-ci illərdə iqtisadi problemlərin yarandığı bir zamanda Heydər Əliyev ekoloji siyasət yürüdərək bu qəbildən olan problemlərin həllinə, kənd təsərrüfatının dirçəldilməsinə, ətraf mühitin mühafizəsinə, şəhər və kəndlərin abadlaşdırılmasına dair bu sahədə misilsiz tədbirlər görürdü [3, s.1-3].

Müasir iqtisadi qloballaşmanın hökm sürdüyü şəraitdə ölkələrin davamlı və səmərəli inkişafı üçün hər hansı bir fəaliyyətin həyata keçirilməsi zamanı ekoloji məsələlərin diqqət mərkəzində saxlanılması mühüm əhəmiyyət kəsb edir. Ekologiya ilə bağlı müsbət-mənfi tendensiya birbaşa və ya dolayısıyla ölkə üçün potensial avantaj və ya dezavantajlar yaradır. Ekoloji davamlılığın təmin edilməsi əhalinin sağlamlığının qorunmasına, bioçeşidliliyin qırmızı kitaba düşmə təhlükəsinin sovuşmasına, ölkə iqtisadiyyatının dayanıqlılığının təmin edilməsinə və ən əsası iqlim dəyişikliyi kimi qlobal problemin dəf edilməsinə səbəb olur. Bildiyimiz kimi təmiz hava, su və torpaq insan sağlamlığı üçün ən başlıca faktorlardandır. Bu baxımdan vətəndaşların sağlamlığının qorunması

ölkədəki ekoloji tarazlığın qorunması ilə birbaşa bağlıdır. Sadalanan faktorların mühafizəsinin təşkil edilməsilə yanaşı fauna tərkibinin də qorunması gələcəkdə onların nəslinin kəsilməsi problemini ortadan qaldırır. Ekologiyanın diqqət mərkəzində saxlanılmasının iqtisadi aspektdən dəyərləndirilməsinə gəldikdə, ölkədəki təbii meşələrin, çayların, bulaqların və başqa nəsnələrin qorunmasının təmin edilməsi, ölkəni turizm məqsədləri üçün cəlbedici edir [6, s.322-347]. Beynəlxalq iqtisadi təcrübə onu deməyə əsas verir ki, təbii ekoloji mühitin qorunub saxlandığı ölkələr ilə yanaşı dağ turizmi, yaylaq turizmi, sağlamlıq turizmi kimi müxtəlif fəaliyyətlərin həyata keçirilməsi üçün əlverişli şərait olan ölkələrin iqtisadiyyatında turizm sektorunun payı nəzərəçarpacaq qədər yüksək olur. Sadalanan faktorlar ilə yanaşı ekoloji çirklənmənin qarşısının alınması, təbii ekoloji mühitin qorunması istiqamətində həyata keçirilən tədbirlər qlobal ekoloji problem olan qlobal istiləşmənin qarşısını alır. Qlobal istiləşmənin qarşısının alınması orada mövcud olan flora və fauna tərkibinin qorunmasına, dolayısıyla planetimizin ömrünün, heç şübhəsiz, uzadılmasına səbəb olur [4, s.3-4].

İqtisadi ədəbiyyatlarda ətraf mühitin iqtisadiyyatı kimi nəzərdə tutulan bu termin ölkələrdə təbii resurslardan səmərəli istifadə edilməsini, resursların istismarı zamanı gələcək nəsilləri diqqət mərkəzində saxlamağı, havaya daha az karbon qazının emissiya edilməsini özündə ehtiva edir. Bu qəbildən olan fəaliyyətlər sosial rifahın artırılmasına, insanların asudə vaxtlarını səmərəli şəkildə sərf etmələri üçün münbit şəraitin yaradılmasına, bir sözlə, "sağlam cəmiyyət və sağlam dövlət" formalaşdırılmasına xidmət edir.

Uzaqgörən liderlər də ölkə əhəmiyyətli layihələri həyata keçirən zaman ekoloji məsələləri nəzarətdə saxlayırlar. Həyata keçirilən siyasətin əsas məqsədi gələcək nəsillər üçün ekoloji sistemi qoruyub saxlamaq, təbii ehtiyatlardan səmərəli istifadə etməklə, ölkənin sonrakı illərdə inkişafına nail olmaqdır. Azərbaycanda ümummilli lider Heydər Əliyevin hakimiyyəti dövründə ekoloji vəziyyətin yaxşılaşdırılması ilə bağlı görülən tədbirlərin bir qisminə aşağıdakıları misal göstərmək olar [1, s.68-92].

Milli park və yasaqlıqların yaradılması: Ulu öndərin hakimiyyəti illərində Azərbaycanda yasaqlıqlar (Türyançay, Şirvan, Ağgöl, Pirqulu, İsmayıllı, İlisu, Qaragöl) və Zəngəzur Milli Parkı yaradılmışdır. Bu parklar bioloji təbii ehtiyatların qorunması ilə yanaşı, xüsusilə təbii ekoloji mühitə diqqət çəkmək məqsədi ilə formalaşdırılmışdır.

Çoxsaylı ağacların əkilməsi: Ölkədəki flora və fauna tərkibini qorumaq, onu daha da zənginləşdirmək məqsədi ilə Heydər Əliyev dövründə dövlət tərəfindən həmişəyaşıl və meyvə ağaclarının əkilməsi ilə bağlı çoxsaylı layihələr həyata keçirilmişdir. Həyata keçirilən bir çox tədbirlər nəticəsində Bakının və digər bölgələrin yaşıllaşdırılmasına, insanların asudə vaxtlarını səmərəli keçirmələri üçün parkların salınmasına nail olunmuşdur [6, s.142-163].

Su hövzələrinin təmizlənməsi tədbirləri: Ümummilli lider Heydər Əliyevin hakimiyyəti dövründə Azərbaycanda su hövzələrinin təmizlənməsi və bərpa edilməsi sahəsində də bir çox tədbirlər həyata keçirilmişdir. Həyata keçirilən tədbirlər neft və qaz sənayesində xaric edilən zərərli tullantıların kirlilik dərəcəsinin azaldılması ilə yanaşı su ehtiyatlarının qorunmasına hədəflənirdi.

Bütün bunlarla yanaşı, ulu öndər Heydər Əliyevin rəhbərliyi ilə 1995-ci ildə hazırlanmış Azərbaycan Respublikası Konstitusiyasında da sağlam ətraf mühitdə yaşamaq hüququ - "Hər kəsin sağlam ətraf mühitdə yaşamaq hüququ var" kimi təsbit edilibdir.

2001-ci il may ayının 23-də ölkəmizdə Ekologiya və Təbii Sərvətlər Nazirliyi yaradılıbdır ki, bu da ulu öndərin ekoloji məsələlərə, ətraf mühitə diqqət və qayğısının bariz nümunəsidir. Ətraf mühit və ekoloji məsələlərlə məşğul olan Mərkəzi icra qurumunun yaradılmasının əsas məqsədi ekoloji problemlərin həll olunması istiqamətində beynəlxalq təşkilatlarla əlaqəli şəkildə fəaliyyət qurmaq, ekoloji məsələlərdə ölkəmizin beynəlxalq əlaqələrini möhkəmləndirmək idi [5, s.75-92].

Bütün bunlar xalqımızın dünyaşöhrətli oğlu Heydər Əliyevin hakimiyyəti illərində ətraf mühitə, ekoloji məsələlərə daimi həssas yanaşdığını ifadə edir. Ulu öndərin "Mən 1993-cü ildə Bakıya gələrkən bizim əkdiyimiz, becərdiyimiz bəzi ağacların kəsilməsini görərkən elə bildim ki, məni yaralayıblar. Mən dəfələrlə demişəm, bir də deyirəm, kim hansı bir sağlam ağacı kəsirsə, hesab edin ki, o, mənim qolumu, barmaqlarımı kəsir.... İnsan qurmalıdır, yaratmalıdır... hər bir insan ağac əkməlidir, becərməlidir, böyütməlidir. Əgər kimsə sağlam ağacı kəsirsə, o nəinki xalqına, millətinə, ölkəsinə xəyanət edir, o, öz ailəsinə, özü-özünə xəyanət edir" ("Xalq qəzeti",

30.08.2023) kimi fikirləri ətraf mühitə, sağlam ekologiyaya, yaşıllaşdırmaya nə qədər önəm verdiyinin bariz nümunəsidir.

İnsan təbiətin bir parçasıdır, təbiətlə qovuşduqda özünü xoşbəxt, firavan hesab edir. Təbiət bizə sağlamlıqla yanaşı, həm də müsbət enerji, ruh yüksəkliyi verir, bizi daha məhsuldar işləməyə motivasiya edir. Sağlam ətraf mühitin formalaşdırılmasına təbii resurslardan qənaətlə istifadə, təmizliyi, yaşıllığı qoruma və s. kimi çoxsaylı amillər təsir edir. Yadda saxlamaq lazımdır ki: "Təbiətə qalib gələn cəmiyyət məğlubdur". Ona görə də, ümummilli lider Heydər Əliyevin aforizm və çağırışlarına riayət etməklə ətraf mühiti qorumaq, sağlam ekoloji mühit formalaşdırmaq, təbiət-cəmiyyət münasibətlərində balansı qorumaq hər birimizin, xüsusilə müasir gəncliyin qarşısında dayanan əsas vəzifədir.

## ƏDƏBİYYAT


1. Heydər Əliyev. Elektron Sənədlər Toplusu. Məqalələr (2016-2020-ci illər), 1322 səh.
2. Axundova Ü. "Heydər Əliyev siyasəti Azərbaycanın uğurlarının əsasını təşkil edir". "Yeni Azərbaycan" qəzeti, 24.04.2021. ;
3. Ələkbərov U. "Heydər Əliyevin idarəçilik məktəbi Azərbaycanın davamlı inkişafının təməli və qarantıdır". "Azərbaycan", -2019, -11 dekabr, №275, səh.1-3;
4. Alıyev İ., Əsədov A. "Heydər Əliyev Azərbaycanın milli inkişaf modelinin banisidir". "Xalq qəzeti", 10 dekabr 2011, səh. 3-4
5. S. Əhmədova, Heydər Əliyev və ədəbi-tarixi proses : monoqrafiya. - Bakı : Elm, 2013. - 156 s.
6. Əliyev Q. Müasir Azərbaycanın banisi, xilaskarı, qurucusu. Bakı, 2006. s.520
7. Novruzov V., Allahverdiyev H. və b. "Heydər Əliyev və Azərbaycan iqtisadiyyatı". Bakı, Azərnəşr, 1998, 388 səh.;
8. https://minenergy.gov.az/az/beynelxalq-teskilatlarla-elaqeler/bmt-nin-iqlim-deyisikliyi-uzre-cercive-konvensiyasi-kioto-protokolu
9. https://eco.gov.az/az/nazirlik/xeber?newsID=4446



***Заур Адалат оглу Асадзаде***
***докторант, Азербайджанского Университета Кооперации***
***zaur.esedzade.1130@gmail.com***


### Роль Гейдара Алиева в формировании экологически устойчивой среды в Азербайджане


***Резюме***

Помимо разговоров об экологической политике, реализуемой в период руководства Президента Азербайджанской Республики Гейдара Алиева, и проделанной работе в направлении защиты природных ресурсов, в исследовании подчеркивается важная роль главы государства в этой области. работа. Помимо экономики страны, обсуждается служение реализуемой экологической политики повышению благосостояния общества, а ее влияние на благосостояние общества связано с экологической политикой. Кроме того, под руководством общенационального лидера Гейдара Алиева упоминаются различные экологические проекты и политики, в том числе создание национальных парков и особо охраняемых заповедников, приютов, лесов, очистка водных ресурсов и экологическое просвещение. В статье подчеркивается важность создания общества, чувствительного к экологическим проблемам, путем акцентирования национальных и международных мер, связанных с устойчивым использованием природных ресурсов, а также важность создания баланса между охраной природных ресурсов и благополучием общества и чувствительность лидеров к экологическим проблемам.



***Ключевые слова: Национальный Лидер, экология, окружающая среда, экологическая политика, национальный парк, заповедник.***

***Zaur Adalat Asadzade***
***PhD student of Azerbaijan Cooperation University***
***zaur.esedzade.1130@gmail.com***

## The role of Heydar Aliyev in the formation of ecologically sustainable environment in Azerbaijan

***Summary***

In addition to talking about the environmental policy implemented during the leadership of the President of the Republic of Azerbaijan Heydar Aliyev and the work done in the direction of protecting natural resources, the important role of the head of state in this field is emphasized in the research work. In addition to the country's economy, the service of the implemented environmental policy to increase the welfare of the society is discussed, and its impact on the welfare of the society is connected with the environmental policy. In addition, under the leadership of the National Leader Heydar Aliyev, various environmental projects and policies are mentioned, including the establishment of national parks and specially protected reserves, shelters, forests, cleaning of water resources and environmental education. The article emphasizes the importance of creating a society sensitive to environmental problems by emphasizing national and international measures related to the sustainable use of natural resources, and the importance of creating a balance between the protection of natural resources and the well-being of society and the sensitivity of leaders to environmental issues.

***Keywords: National Leader, ecology, environment, environmental policy, national park, reserve, sanctuary.***